Folklor xalq həyatının əks-sədasıdır

(əvvəli 7, 8, 11 və 12 mart tarixli saylarımızda)

Oxşamalar, "nazlamalar", yaxud da "əzizləmələr" kimi adlanan qısa şeir parçaları laylalardan fərqli olaraq, uşaq yuxudan oyandıqdan sonra, onu bir növ yuxunun yaratdığı özündənqopma durumundan-yarıyuxululuqdan çıxarmaq, şənləndirmək və oynatmaq, əzizləmək, nazlandırmaq məqsədilə oxunan nəğmələrdir. Laylalarda həzinlik, aşağı ton üstünlük təşkil edir, oxşamalarda isə şən, ritmik olmaqla yanaşı, həm də zarafatyana ifadələr də olur. Nazlama, oxşama, əzizləmələrlə böyüyən körpələr ilk başdan səmimilik, şəfqət və mehribançılıq ruhunda, nənə-baba sevgisinə bələnərək fərəhli duyğular içində boya-başa çatırlar. "Dövlətdə dəvə, övladda nəvə" atalar sözünün də məhz nəvələrə bəslənən bu intəhasız, sərhədsiz sevginin sonunda yarandığı şəkksizdir. Çünki dəvə qədim dövrlərdə ailənin, ocağın ən böyük dövləti hesab olunurdu və imkanlı ailələr evinə ayaq basan ən əziz qonağın şərəfinə dəvə kəsirdi. Ailədə isə uşaqlardan da əziz nəvələr hesab olunur. Nəvələr, nəticələr baba-nənələrin həyatına təravət gətirir, qış çağını yaşadıqları ömür payına yeni ömür qatırlar. Bir vaxtlar övlad üçün yaşayan ata-analar ixtiyar çağlarında nəvələr üçün yaşayan baba-nənələr olurlar. Naxçıvandakı Ərəfsə kənd tam orta məktəbinin müəllimi Tərlan Nəcəfovanın yazdığı kimi, onların ürək çırpıntıları zaman-zaman şifahi xalq ədəbiyyatı nümunələrinə çevrilib.

Güneydə oxşamalar ikilik, dördlük, bəzən hətta beşlik və altılıq şəklində də olur.

Balama qurban ağ atlar,
Balam haçan çay atlar.
Süd dibi, qaymaq dibi,
Qurbanın olsun bibi...

Şan bağlayan arılar,
Qonar, gülə sarılar,
Balama qurban olsun
Yaşı ötmüş qarılar...

Nazlamalar körpələri məhz əzizləmək, kiçik yaşlı uşaqları əməyə cəlb etmək, qızları ev işləri görməyə meyilləndirmək və onları gələcək həyata, ana, bir ocağın sahibi olmağa hazırlamaq baxımından düzülüb-qoşulub:

Dınqılı qızım, dur çay qoy,
Evimizi süpür, nahar qoy,
Öymüzə qonaqlar gəlir,
Yüftə dodaqlar gəlir.

Çaqqalalar gül açdı,
Mənim balam dil açdı.
Çaqqalalar calandı,
Mənim balam "Məlandı".
Hamı çıxıb gedəndi,
Balam mənə qalandı.
Mənim balam, naz balam,
Çiçək balam, düz balam.

Bu nazlamanın başqa bir versiyasında dolu, dopdolu mənasını verən və qızlara qoyulan adlardan olan "Məlan" isimli körpə əzizlənir və öncəki nazlamada Azərbaycanın Araz sərhədlərinə yaxın bölgələrində - Culfa, Qarakilsə, Naxçıvan, Ordubad, Şərur, Zəngilanda kal, yetişməmiş meyvələrə deyilən "çaqqala" kəlməsi (Ərix hələ çaqqaladı, dəymiyif (Zəngilan); Əriyi çaqqala yemə, qızdırarsan (Naxçıvan) "şaftalı" sözü ilə əvəzlənib:

Şaftalılar calandı,
Məlan mənim balamdı.

Esmira FUAD,
filologiya elmləri doktoru.

Respublika .- 2023.- 14 mart.- S.14.